# Milli siyasətşünaslıq elminə böyük töhfə -

# “Diplomatik-siyasi ensiklopediya”

*Azərbaycan elm tarixində bu mövzuda ensiklopediya ilk dəfədir dərc olunur. Müasir dövrdə beynəlxalq aləmdə formalaşmış nizam və münasibətlər uzun əsrlər boyu gedən çoxşaxəli inkişaf yolunun nəticəsidir. Dünya nizamının vəziyyətinin öyrənilməsi, inkişaf istiqamətləri və perspektivləri ilə bağlı proqnozların verilməsi elmi-politoloji fikir gündəmində aktuallığını heç zaman itirməyəcək məsələlərdəndir. Hazırda dünyada gedən siyasi proseslərin, diqqətçəkən başlıca problemlərin, milli və beynəlxalq siyasi leksikonda yer alan anlayış və terminlərin, ayrı-ayrı diplomatların, dövlət və siyasi xadimlərin portretlərinin açılması, tarixin təcrübəsinin, dövlətçilik və diplomatik ənənələrin öyrənilməsi daha vacib əhəmiyyət kəsb edir.*




Məhz müasir diplomatiya və beynəlxalq münasibətlər ənənələri üzərində köklənmiş və bu mənada tarix elmləri doktoru, tarix və siyasi elmlər üzrə professor, tanınmış elm və ictimai-siyasi xadim Ağalar Nəriman oğlu Abbasbəylinin uzunmüddətli və məhsuldar elmi yaradıcılıq fəaliyyətinin məhsulu olan 5 cildlik "Diplomatik-siyasi ensiklopediya" (A - Z, Bakı: 2024, 2832 s.) milli politologiya elminin mühüm nailiyyətlərindən biri hesab oluna bilər. Professor Ağalar Abbasbəyli 105 illik tarixi olan Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər kafedrasına 35 il rəhbərlik etmişdir. Bu kafedranın bazasında yeni 2 kafedra yaradılmışdır: Diplomatiya və inteqrasiya prosesləri və beynəlxalq jurnalistika. Bu dövrlərdə onun rəhbərliyi ilə əlliyə qədər fəlsəfə və elmlər doktoru dissertasiya müdafiə etmişdir.

"Diplomatik-siyasi ensiklopediya"nın birinci cildində "Aaxen konqresi"ndən "Beynəlxalq siyasi münaqişənin tənzimlənməsində vasitəçilik" terminlərinə qədər beynəlxalq münasibətlərdə rast gəlinən anlayış, termin və sözlərin mahiyyəti, məzmunu açılır, müxtəlif geosiyasi nəzəriyyə və doktrinalar, dövlət və siyasi xadimlər haqqında ətraflı məlumat verilir. Ensiklopediyada Ağqoyunlu dövləti, onun beynəlxalq əlaqələri, dövlətçiliyimiz tarixində yeri təhlil edilir, Azərbaycan Demokratik Respublikasının tarixi, görkəmli dövlət xadimlərinin fəaliyyəti, mübarizə yolu haqqında məlumatlar yer alır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında hüquqi aktlar, dövlət simvolları, diplomatları, ərazisi, sərhədləri, ikitərəfli və çoxtərəfli əlaqələri, milli və hərbi təhlükəsizliyi ilə bağlı məsələlər əks olunur. Xürrəmilər hərəkatı, Babəkin başçılığı altında milli-azadlıq mübarizəsi və nəticələri, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının, beynəlxalq konvensiyaların, beynəlxalq terminlərin izahı verilir və mahiyyəti açıqlanır. Birinci cild Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan Respublikasının qurucusu, böyük vətənpərvər və beynəlmiləlçi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur. Hər cildin sonunda ensiklopediyanın müəllifi haqqında ətraflı məlumat verilir.

İkinci cild Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının və şanlı Silahlı Qüvvələrimizin erməni işğalçıları üzərində Vətən müharibəsində qələbəsinə həsr olunub. Ensiklopediyada yer alan "beynəlxalq terrorizm" və "beynəlxalq təhlükəsizlik" müasir dövrün mühüm anlayışları kimi nəzərdən keçirilir. Beynəlxalq terrorizmə və təhlükəsizliyə ənənəvi yanaşmalarda bir qayda olaraq milli təhlükəsizliyi qorumaq üçün dövlət aktorlarına və onların hərbi imkanlarına diqqət yetirilir.

Oxucu ensiklopediyanın II cildindən Birləşmiş Millətlər Təşkilatı (BMT) və onun strukturları, nizamnaməsi, fəaliyyət tarixi, dünya böhranlarının nizama salınmasında rolu, baş katibliyi, baş məclisi, habelə Beynəlxalq Məhkəmə və Statusu və s. haqqında zəngin məlumatlar əldə edə bilər. Qloballaşan dünyada BMT-nin və onun qurumlarının rolunun və əhəmiyyətinin artması ilə bağlı son məlumatlar da bu cilddə yerləşdirilən ayrı-ayrı məqalələrdə öz əksini tapmışdır.

Ensiklopediyanın II cildində müstəqil Azərbaycan Respublikasının qurucuları, görkəmli dövlət xadimləri və diplomatları Əliyev Heydər Əlirza oğlunun, Əliyev İlham Heydər oglunun, Əliyev Əziz Məmmədkərim oğlunun siyasi portretləri, onların həyat və yaradıcılıq yolu, Azərbaycan dövlətçiliyi və suverenliyinin qorunması sahəsində fəaliyyətləri, "neft və kommunikasiya diplomatiyası"nın mahiyyəti, "Əsrin müqaviləsi" və "Yeni Əsrin müqaviləsi"nin imzalanmasının regional və beynəlxalq əhəmiyyəti kimi mühüm məsələlər politoloji təhlilin süzgəcindən keçirilir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə milli diplomatiya və hərb sənətimizin böyük zəfəri kimi təqdim edilir.

III cilddə "Gömrük İttifaqı" anlayışından "Marketinq" terminınə qədər beynəlxalq münasibətlərdə işlənən anlayışların və sözlərin məzmunu açılır. Müəllif geosiyasəti - dövlətin strateji potensialına təsir edən, coğrafi, tarixi, siyasi və digər bir-birilə qarşılıqlı əlaqədə olan amilləri vəhdət şəklində analiz və təhlil edən bir elm kimi qiymətləndirir, dövlətçilik siyasəti və dövlətçiliyin məkanını geosiyasətin obyekti və predmeti olduğunu göstərir, habelə ümumən qəbul olunmuş meyarlardan çıxış edərək geosiyasi regionun xüsusiyyətlərini verir, onu geostrateji regionun üzvi hissəsi hesab edir.

Ensiklopediyanın bütün cildləri üçün xarakterik ümumi xüsusiyyətlərdən biri leksikonda az rast gəlinən, lakin müəyyən ixtisas dairələri üçün vacib olan anlayış və izahat birləşmələrin yer almasıdır. Bu baxımdan, gerontokratiya, "Habibat" (və ya Birləşmiş Millətlər Təşkilatının Yaşayış Məntəqələri üzrə Mərkəzi), "Hakimiyyət dəhlizləri", xarizma, xartiya, xunta, imperativ, impiçment, kart-blanş, kondominium, "kölgə kabineti", gizli diplomatiya, lizinq, lobbi, majoritar sistem kimi anlayışların sözlüyə gətirilməsini, məna və məzmununun, işlək sahəsinin açılmasını vacib və əhəmiyyətli hesab edirik. Ensiklopediyada, həmçinin bir sıra beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyət tarixi və mövcud vəziyyəti haqqında da yığcam və tutumlu məlumatlar yer almışdır.

Ensiklopediyada Azərbaycanla, milli diplomatiyamızla bağlı Gülüstan sülh müqaviləsi, Qoşulmama Hərəkatı, Xocalı soyqırımı, habelə milli diplomatiya məktəbimizin bir sıra nümayəndələri haqqında məqalələrin olması dövlətimizin və dövlətçiliyimizin ölkəmizdə və dünyada tanıdılması məqsədlərinə xidmət edir. Belə ki, Gülüstan müqaviləsi təkcə milli deyil, regional faciənin başlanğıcıdır, Xocalı soyqırımı beynəlxalq faciə kimi dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınmaqdadır. Qoşulmama Hərəkatına dörd il sədrliyi Azərbaycanı müasir dünyada söz sahibinə çevirmişdir.

"Diplomatik-siyasi ensiklopediya"nın IV cildində "Marşal, Corc Ketlet" - ABŞ diplomatının bioqrafiyasından başlayaraq "Sığorta müqaviləsi" anlayışının mahiyyətinə qədər diplomatik-siyasi məzmunlu terminlərin mənası açılmışdır. Dördüncü cild 44 günlük Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsinə həsr olunub... Burada müharibələr, müharibə cinayətləri haqqında geniş məlumatlar verilir, müharibə cinayətkarlarının cəzalandırılmasının vacibliyi ilə bağlı beynəlxalq hüquq normalarına həsr olunmuş məsələlər təhlil edilir, beynəlxalq Nürnberq məhkəməsi prosesinə, habelə 1990-cı il 20 yanvar hadisələrinə aydınlıq gətirilir, sadə və anlaşıqlı şəkildə izahatlar verilir.

IV cildin əhatəsinə uyğun olaraq masonçuluq, nonkoforizm, nuvaris, nüvə pariteti, obstruksiya, promulqasiya, pablik rilevşnz, Rambuye klubu, Nobel mükafatı, Məğrib birliyi, mondializm, optasiya, panslavizm kimi anlayışların mahiyyəti açılır.

Bu cilddə Səfəvilər dövləti və onun beynəlxalq əlaqələri, ölkəmizin dövlətçilik və hərb tarixində mühüm rol oynayan adlı-sanlı şəxsiyyətlərdən Məhəmməd Əmin Rəsulzadə, Hafiz Paşayev, hərb tariximizə adları böyük hərflərlə yazılan Səməd bəy Mehmandarov, Cəmşid Naxçıvanski, Hüseyn xan Naxçıvanski və başqaları haqqında dolğun, ətraflı məlumatlara da rast gəlinir.

Diplomatik-siyasi ensiklopediyanın V cildində Çin dövlət xadimi, siyasi və partiya xadimi Si Cinpinin həyat və fəaliyyətinin təhlilindən başlayaraq böyük rus şairi A.S.Puşkinin təxminən 200 il bundan əvvəl yazdığı bu sətirləri: "Zaman dəyişsə də, erməni xisləti dəyişməyib" izahlı birləşmələrinə qədər olan bir çox anlayışların izahına, beynəlxalq və milli leksikonda olan sözlərin məzmununun açılmasına geniş yer verilir. Müəllifin "Azərbaycanın gələcəyi naminə..." həsr etdiyi V cild məlumat, fakt və materialların zənginliyi, rəngarəngliyi baxımından o biri cildlərdən seçilmir, əksinə, onları tamamlayır.

Müasir dövrdə leksikonumuzda elə anlayışlar, terminlər və söz birləşmələri var ki, bunlar bütövlüklə diplomatiya və xarici siyasət məsələlərinə aiddir və onlara aydınlıq gətirilməsi, mənalandırılması və izah olunması tələb olunur. Bu baxımdan, siyasətdə kollektiv şüursuzluq, siyasi antropologiya, siyasi dəyərlər, siyasi emblematika, siyasi oyun və sövdələşmələr, soyqırımı və ya genosid, talasokratiya, teokratiya, texnokratiya, terror, təzyiq qrupu, traybalizm, urbanizasiya, "üçüncü reyx", valyuta, Vaythol, volyuntarizm və s. anlayışların mənalarının açılması beşinci cilddə öz həllini tapmışdır.

Bu cilddə dünya siyasətinin qurucularından İ.V.Stalinin, Şarl de-Qollun, M.Tetçerin, İ.B.Titonun bioqrafiyası ətraflı və geniş şəkildə işıqlandırılır, Azərbaycan Demokratik Respublikasının yaradıcılarından - görkəmli diplomat və dövlət xadimi Topçubaşov Əlimərdan bəy Ələkbər oğlunun dövlətçiliyimizin beynəlxalq aləmdə tanınması üçün apardığı şanlı mübarizənin tarixi göstərilir, habelə artilleriyanın nəzəri və praktiki inkişafındakı danılmaz xidmətlərinə və qazandığı qələbələrə görə rusların "Artilleriyanın allahı" ləqəbini verdikləri general Əliağa İsmayıl Ağa oğlu Şıxlinskinin həyat və mübarizə yolu işıqlandırılır.

Ensiklopediyada, habelə "Şuman planı", TRASEKA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) layihəsi, NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı), UNDP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) və UNICEF (Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Uşaqlara Yardım Fondu) proqramları, bütünlüklə Diplomatik dərəcələr haqqında Vyana konvensiyası və s. beynəlxalq əhəmiyyətli qurum, proqram, layihə və sənədlərin də izahına aydınlıq gətirilir. Dünya siyasəti tarixində türklərin müstəsna rol oynadığını nəzərə alan müəllif ayrıca məqalədə tarixi və müasir türk dövlətlərinin siyahısını verir, e.ə. III əsrdən başlayan və XX əsrin sonuna qədər olan dövrləri əhatə edən yüzlərlə türk dövlətlərinin adlarını tarixin yaddaşından ensiklopediyanın yaddaşına köçürür.

Ensiklopediyanın "duaqapaması" "Zaman dəyişsə də, erməni xisləti dəyişməyib" məqaləsidir. Müəllif böyük rus şairi A.S.Puşkinin erməni xislətinə verdiyi "Заслуживаешь ты расстрел, слабейшее ты из всех звений! Когда же сдохнешь наконец? Когда закончатся конфликты? Когда закончишь ты всем врать? Когда же прекратятся мифы?" - xarakteristikası ilə on illər boyu apardığı yaradıcılıq işinin uğurlu nəticəsini bizə və gələcək nəsillərə ərməğan edir.

Ensiklopediya elmi işçilər, diplomatlar və bütün Azərbaycan oxucuları üçün ən qiymətli hədiyyədir.

**İsmayıl ƏLİYEV,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor.**